# Yağı düşmən, tamah salma bu yerə



*FƏRYAZ HƏMİDOV*

**ANA LAYLASI**

Başımız üstündə günəşdir, sönməz,
Hər ömrə iz salıb qalar, silinməz.
Ünvanı bilinməz, yaşı bilinməz,
Ulu tarixlərdən gələr sədası -
Ana laylasıdır, ana laylası.

Səsi ayaq açıb gəzər beşikdə,
Şirinlik paylayır evdə, eşikdə.
Sayıq gözətçidir, durar keşikdə,
Körpənin gülüşü, şirin röyası -
Ana laylasıdır, ana laylası.

Tac qoyar körpəyə güldən, çiçəkdən,
Müjdələr gətirər xoş gələcəkdən.
Silər nisgilləri gözdən, ürəkdən,
İnsanlıq güzgüsü, həyat aynası -
Ana laylasıdır, ana laylası.

Onun hər kəlməsi, sözü məhəbbət,
Mayası məhəbbət, duzu məhəbbət,
Mənası məhəbbət, özü məhəbbət.
Ölçüyə gəlməyən sevgi dünyası,
Ana laylasıdır, ana laylası.

**BU DÜNYANI DAĞILMAĞA QOYMAYAQ**

Nə bir qəlbə kədər dolsun dünyada,
Nə bir ömür vaxtsız solsun dünyada.
Qoy insanlar qardaş olsun dünyada
Ərzə nifaq toxumları yaymayaq,
Bu dünyanı dağılmağa qoymayaq.

Hər bir alim dərk eləsin səhvini,
Düşünməsin kainatın məhvini.
Ölüm saçan neytronlar kəşfini,
Əsrin böyük ixtirası saymayaq,
Bu dünyanı dağılmağa qoymayaq.

Muzey olsun silahların son yeri,
Sülh nidası qoy dağıtsın sədləri.
İnsan dolu şəhərləri, kəndləri,
Raketlərin hədəfində qoymayaq,
Hiylələrə, fitnələrə uymayaq.

Qan görməsin, əzilməsin bir ölkə,
Tarixlərə yazılmasın qoy ləkə.
Bəşər bir an hiss etməsin təhlükə -
Dava nədir, döyüş nədir, duymayaq,
Bu dünyanı dağılmağa qoymayaq.

Qardaşlığın al bayrağı enməsin,
Dünya hədə meydanına dönməsin.
Ürəklərin məhəbbəti sönməsin -
Süd qoxulu körpələrə qıymayaq
Bu dünyanı dağılmağa qoymayaq.

**QIŞI GÖRÜNCƏ**

Baharla həmyaşıd olan yarpaqlar,
Sarılıq gətirib solan yarpaqlar,
Gözü çən-çiskinlə dolan yarpaqlar
Budaqdan üzülür qışı görüncə.

Təbiət utanıb özü-özündən,
Duman çarşabını çəkmir üzündən,
Sırsıra yağışlar bulud gözündən
Yaş olub süzülür qışı görüncə.

Acı yel soldurur otu, çiçəyi,
Ağarır dağların saçı, birçəyi,
İstiyə gecikən qönçə ləçəyi
Soyuqdan büzülür qışı görüncə.

Gəlmir bağ-bağçada bülbülün səsi,
Susur qaranquşun şirin nəğməsi,
Eldən-elə köçən durna dəstəsi
Cərgəyə düzülür qışı görüncə.

**CEYRAN**

Zirvəsi qartallı uca dağların,
Səpilə yamaca-yala ceyranı.
Yaşıl meşələrin, gen düzənlərin,
Hər zaman qoynunda qala ceyranı.

Gəlin tək bəzəyib özü-özünü,
Gəzə Mil düzünü, Muğan düzünü,
Şairlər seyr edib qara gözünü
Mahnıya, dastana sala ceyranı.

Deyirlər azalır, azalır yaman,
Bu xəbər qəlbləri ağrıdır, aman,
Gözəlliyi duyan, düşünən insan
Qıyarmı nişana ala ceyranı.

Həris yırtıcıdan, qansız ovçudan,
Təhlükə hiss edib qalsa nigaran.
Qoy gözəl hüsnünü gizlədib duman,
Ötürsün daldaya, dala ceyranı.

Fəryazın ilhamı bulağa dönər,
Ürəyi fərəhdən bir dağa dönər,
Ömrü gur işıqlı çırağa dönər
Həmişə yanında ola ceyranı.

**BSSNZSSDİN MSSNİ**

Sevgilim göylərdə uçan quş olsa,
Kövrək bir budağa bənzədin məni.
Qara gözlərinə qəm qonmuş olsa,
Saralan yarpağa bənzədin məni.

Ürəyim nəğməylə doludur bütün,
Nəğmə bəzəyidir insan ömrünün.
Hər evdən ucalsa şadlıq, toy-düyün,
Çağlayan bulağa bənzədin məni.

Tanrıdan bir budur arzum, istəyim,
Yanmaqda həmişə şama bənzəyim.
Eli düşünməsə bir an ürəyim
Gedəri qonağa bənzədin məni.

**BİR KÖRPÜ OLSAYDIM**

Bir çay var dünyanın xəritəsində,
Bir yanında bahar, bir yanında qış.
Ana fəryadı var onun səsində,
Ömründə bircə yol heç ovunmamış.

Bir çay var dünyanın xəritəsində,
Qardaşı qardaşdan ayırıb axır.
Nisgillər gizlənib hər nəğməsində,
Duyan könülləri yandırıb yaxır.

Bir çay var dünyanın xəritəsində
Axır intizarla, adı Arazdı,
Bir körpü olsaydım mən sinəsində
Dünyada kədərim, dərdim olmazdı.

**SEVİNİR**

Bahardır, yenə də təbiət gülür,
Hər tərəf yamyaşıl rəngə bürünür.
Göydən narın-narın yağış süzülür,
Damcılar zər səpir, yollar sevinir.

Zövq alıb ətirli güldən, çiçəkdən,
Quşlar nəğmələrlə ötür ürəkdən.
Qorxub həzin-həzin əsən küləkdən,
Bənövşə sığınan kollar sevinir.

Dağlara, düzlərə təravət gəlir,
Torpağa istilik, hərarət gəlir,
Misli görünməmiş bir qüvvət gəlir
Zəhmətə bağlanan qollar sevinir.

**BƏNÖVŞƏNİ**

Dağların döşündə bahar çağında,
Eşib qar altında say bənövşəni.
Durar boynun büküb yol qırağında,
Tutma hər çiçəyə tay bənövşəni.
Ona da dağ çəkib taleyin oxu,
Həsrəti, qüssəni gözündən oxu,
Körpə uşaq kimi kövrəlir çoxu,
Verəndə qızlara pay bənövşəni.

Yaşlı gözlərini əlimlə sildim,
Ətrini dərmanım, loğmanım bildim,
Öləndə, kim bilir, bəlkə dirildim,
Dərib sinəm üstə qoy bənövşəni.

**BAXA BİLMİRƏM**

Ayrılmaq çətindir xatirələrdən,
Məktəb duyğuları çıxmır yadımdan.
Söhbət dahilərdən düşəndə hərdən,
Mən də danışıram onun adından.
Sadə böyütmüşdü onu bu həyat,
Çoxuna bənzəyən bir insan idi.
Hər anı qayğılı, ömrü narahat,
Qəlbi şəfqət dolu bir ümman idi.
Möcüzə yaradan sehirkar kimi,
Məni zəkasıyla mat qoyardı o
Atamdan, anamdan gizlətdiyimi,
Bircə baxışıyla tez duyardı o.
Mən onu gec tapdım, tez də itirdim,
Əridi, nurunu yoluma saldı.
Məni övladı tək sevən müəllim,
Gözümdə ən uca dağ kimi qaldı.
Verdiyi kitablar məndədir hələ,
Bəxşiş var kədəri bəzən sərt olur.
Arabir onları alanda ələ,
Açdığım hər vərəq mənə dərd olur.
Bu itkim sizlərə asan gəlməsin,
Gözlərdə yaş olub axa bilmirəm.
Məni bu həyata səsləyən kəsin,
İndi məzarına baxa bilmirəm.

**VƏTƏN OĞLU**

Qarabağda döyüşən əsgərlərə
Qeyrətli, cürətli qəhrəmanların,
Yenilməz varisi ol, Vətən oğlu.
Günahsız tökülüb axan qanların
Durma, qisasını al, Vətən oğlu.

Elin qayğısını sən duya-duya,
Sayıq keşikçi ol torpağa, suya,
Dönüb nərə çəkən qoç Koroğluya,
Misri qılıncını çal, Vətən oğlu.

Düşsə bu torpağa namərd izləri,
Torpaq haraylayar, səslər bizləri.
Döyüşdə qatlanmaz türkün dizləri,
Düşməni lərzəyə sal, Vətən oğlu.

Özünə şərəfli bir yol seçmisən,
Məsləkin naminə candan keçmisən,
Azərbaycan deyib sən and içmisən,
Anda sədaqətli qal, Vətən oğlu.

**QOŞMA**

Yad bağından çiçək dərmə,
Bir gün gələr başa vurar.
Vəfasıza könül vermə,
Öz əhdini daşa vurar.

Çalış daim hörmət qazan,
İnsan olmaq deyil asan.
Nanəcibin qızın alsan,
Qardaşı qardaşa vurar.

Fəryaz deyər gördüyünü
Boş keçirmə ömrü, günü.
Zəhmət sevən öz ömrünü,
Səadətlə başa vurar.

**BAHAR**

Çöllərin, düzlərin qəm havasını
Solğun görkəmini itirər bahar.
Yaşıldan geyinib öz libasını,
Gül-çiçək xonçası gətirər bahar.

Qaranquş verincə yaz sorağını,
Bülbül məskən edər gül budağını.
Dağların çiynindən qar duvağını,
İliq yelləriylə götürər bahar.

Alıb hənirini sıxlaşar meşə,
Yollarda gözətçi durar bənövşə,
Hərdən buludlarla çıxar döyüşə,
Ağlayar, köksünü ötürər bahar.

Ağaclar bəzənən bir qıza dönər,
Hər çiçək budaqda ulduza dönər,
Nəfəsi nanəyə, yarpıza dönər,
Ətrini hər yana yetirər bahar.

Sanki şirinləşər quşların dili,
Çalar "cəngi"sini çayların seli,
Durna qatarıyla neçə mənzili,
Keçər, səfərini bitirər bahar.

**MƏNİMDİR**

Yağı düşmən, tamah salma bu yerə,
Yaşıl düz də, uca dağ da mənimdir.
Hər qarışı ürək açan mənzərə
Allı-güllü bağça, bağ da mənimdir,
Zəngəzur da, Qarabağ da mənimdir.

İllər boyu isinmisən qazımla,
Ovunmusan kamanımla, sazımla,
Böyümüsən çörəyimlə, duzumla,
Yandırdığın od-ocaq da mənimdir,
Zəngəzur da, Qarabağ da mənimdir.

Diş qıcadın dənizimə, gölümə,
Böhtan dedin mənim ana dilimə,
Aldım axır öz haqqımı əlimə,
Ucaltdığım bu bayraq da mənimdir,
Zəngəzur da, Qarabağ da mənimdir.

Nifaq salıb qan tökməyə səyin var,
Aləm bilir səndə çürük beyin var,
Ay vətənsiz, bu dünyada nəyin var,
Yaşadığın o torpaq da mənimdir,
Zəngəzur da, Qarabağ da mənimdir.

**DÜNYADA**

Nəfsinə sahib ol, tamahsız yaşa,
Tamahın başını yeyər dünyada.
Vurulsan gördüyün hər qələm qaşa,
Məcnunluq cismini əyər dünyada.

Qonşun gülsə sevin, ağlasa ağla,
Böyüyün, kiçiyin hörmətin saxla.
Hər işin, əməlin yoğrulsa haqla,
El sənə min yaşa deyər dünyada.

Vüqardır yaşadan zirvəni, dağı,
Namusdur hər evin nuru, çırağı,
Bir adət eyləsən ara vurmağı
Nəsillər qəbrinə söyər dünyada.

Zəhmətdir yetirən hər səadəti,
Haram bir tikəyə uzanma qəti.
Yaxşı bir adaxlı olsa qisməti
Bir qız on oğula dəyər dünyada.

**MƏN OLUM**

Səndən ötrü çox həsrətə dözmüşəm,
Gülüm gəl ki, indən belə şən olum.
Qaranquşam, daim bahar gəzmişəm,
Rəvadırmı baharımdan gen olum.

Qoşa yanaq məhəbbətin odunda,
Ayrılıqdan iz qalmasın yadında.
Sevinc görüm ünvanında, adında,
Nəyə gərək duman olum, çən olum.

Hər arzumuz, ümidimiz səadət,
Yolumuzda nə qəm olsun, nə möhnət.
Qəlbimizdə şahlıq etsin məhəbbət,
Şahı sən ol, dilənçisi mən olum.

*2022*